# Sülhə doğru daha bir addım

**Brüsseldə əvvəlcədən razılaşdırılmış və maraqla gözlənilən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın üçtərəfli görüşü baş tutub.**

## Brüsseldə Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə baş tutan üçtərəfli görüşün nəticələri belə deməyə əsas verir

Görüş beş saat davam edib. Üçtərəfli görüşdən əvvəl Şarl Mişelin həm Prezident İlham Əliyevlə, həm də Ermənistanın baş naziri Nikol Paşinyanla təkbətək görüşü keçirilib.

**(davamı 5-ci səhifədə)**

# Sülhə doğru daha bir addım

(əvvəli 1-ci səhifədə)

## Brüsseldə Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə baş tutan üçtərəfli görüşün nəticələri belə deməyə əsas verir

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib. Şarl Mişel açıqlamasında deyib: "Bu gün mən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşə bir daha ev-sahibliyi etdim. Bu, bizim bu formatda üçüncü müzakirəmiz idi. Biz Cənubi Qafqazda vəziyyət və hər iki ölkənin Avropa İttifaqı ilə münasibətlərinin inkişafına, habelə sərhəd regionuna əsas diqqəti yönəltdik".

Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında Brüsseldə keçirilən görüş zamanı üçtərəfli görüşlə bağlı fikir mübadiləsi olub. Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub. Şarl Mişel Azərbaycan Respublikasına səfərini xatırlayıb. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanıb. Prezident İlham Əliyev bu məsələlərə verdiyi töhfəyə görə Şarl Mişelə təşəkkürünü bildirib. Eyni zamanda, Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşə dair fikir mübadiləsi aparılıb. Ümumiyyətlə, Azərbaycan Prezidentinin Brüsselə bu səfəri ölkəmizin milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətinin növbəti böyük uğurudur. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşlər və əldə olunmuş nəticələr dövlət başçısının dünyada böyük nüfuzunun göstəricisi olaraq təqdir olunur.

Yeri gəlmişkən, xatırladaq ki, bu formatda ilk üçtərəfli görüş ötən ilin 14 dekabrında keçirilmişdi. O vaxt, Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyi formalaşdırıldı, davamı olaraq tərəflər arasında intensiv təmas quruldu, telefon danışıqları keçirildi. 6 aprel Brüssel görüşündə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Cənubi Qafqaz regionunda vəziyyətə dair müzakirələrin davam etdirilməsi və Avropa İttifaqının hər iki ölkə ilə münasibətlərinin inkişafı üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı qəbul etdi. Aİ Prezidenti gərginliklərin aradan qaldırılmasında yaxından çalışmağın, Ermənistan və Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsi və regionda yaşayan bütün xalqların faydası naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazın təşviq edilməsinə Avropa İttifaqının sadiq olduğunu bildirdi. Etimadı və dinc birgə yaşayışı təşviq etmək məqsədilə hər iki tərəfin humanitar jestlərinin əhəmiyyətini vurğuladı. O, həll olunmamış bütün humanitar məsələlərin tam və çevik həllinə ehtiyacın olduğunu, o cümlədən hələ də saxlanılmaqda olan şəxslərin azad edilməsi və itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli həllini vurğuladı və Avropa İttifaqının bu işə dəstək olmağa hazır olduğunu bildirdi. Bildirildi ki, Avropa İttifaqı öz növbəsində Azərbaycan və Ermənistan arasında etimadın qurulması tədbirlərinə və humanitar məqsədli minatəmizləmə səylərinə, o cümlədən ekspert məsləhətini təmin etməyə davam etməklə münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının artırılması, bərpa və yenidənqurma işlərinə dəstək olacaqdır. Aİ Prezidenti həm Prezident İlham Əliyev, həm də baş nazir Paşinyan tərəfindən ölkələr arasında sülh sazişinə doğru sürətli irəliləmək arzularının ifadə edilməsini qeyd etdi. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq əldə olundu.

Liderlər, həmçinin xüsusilə Ermənistan və Azərbaycan arasında və daha geniş mənada Cənubi Qafqazda kommunikasiya, bağlılıq infrastrukturunun bərpasını da müzakirə etdilər. Prezident Mişel dəmir yollarının bərpası istiqamətində atılmış addımları alqışladı, eyni zamanda, Ermənistanı və Azərbaycanı yol əlaqələrinin bərpası üçün effektiv üsullar tapmağa dəvət etdi. Avropa İttifaqının bağlılıq əlaqələrinin inkişafını dəstəkləməyə, o cümlədən İqtisadi və İnvestisiya Planına uyğun olaraq və ümumi layihələri müəyyən etmək üçün təklif olunmuş iqtisadi məşvərət forumundan da istifadə etməyə hazır olduğu bildirildi.



Mayın 22-də Brüsseldə keçirilmiş növbəti görüşdə tərəflər "bütün məsələləri" nəzərdən keçiriblər. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin sözlərinə görə, İlham Əliyev və Nikol Paşinyan sərhədlərlə bağlı komissiyanın birgə iclasının keçirilməsinə, Naxçıvana Ermənistan ərazisindən yol açılmasına, xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətlərinin yaxın həftələrdə sülh danışıqlarını davam etdirməyə razılaşıblar. Ş.Mişel Qarabağdakı etnik erməni əhalinin "hüquqları və təhlükəsizliyi məsələsinin həll olunmasının vacibliyini" liderlərin diqqətinə çatdırıb. Görüşü "məhsuldar və səmimi" adlandıran Şarl Mişelin sözlərinə görə, sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq: "Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq". Onu da xüsusi qeyd etmək lazımdır ki, bu formatda hər bir görüş postmünaqişə dövrünün reallıqlarının qəbuluna böyük töhfədir, ən əsası sülh müqaviləsinin imzalanmasını yaxınlaşdırır. Avropa İttifaqının təşəbbüsü ilə ilk üçtərəfli görüşdə Brüssel sülh gündəliyinin əsası qoyuldu. Azərbaycan bu gündəliyə sadiqdir, sülh müqaviləsinin tezliklə imzalanmasında istəyini açıq-aydın şəkildə ifadə edir. Ermənistan bu ilin aprelində Brüsseldə baş tutan görüşdə Azərbaycan tərəfinin irəli sürdüyü beş prinsipi qəbul etmişdir. Avropa İttifaqının dəstəyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizmin və formatın yaradılması da dövlətimizin ədalətli mövqeyinə dəstəyin ifadəsidir. Tərəflər sərhəd məsələləri üzrə birgə komissiya yaradılması, ilk növbədə sərhədlərin delimitasiya prosesinə başlanılması barədə razılıq əldə etdilər.

Ermənistanın hər bir öhdəliyə məsuliyyətsiz yanaşması diqqətdən kənarda qalmır. Sosial-iqtisadi inkişafa gəlincə, Avropa İttifaqı tərəflərlə birlikdə hər iki ölkənin və onların xalqlarının rifahı naminə iqtisadi inkişafı təşviq etməyə çalışan İqtisadi Məşvərət Qrupunun işini inkişaf etdirəcək. Avropa İttifaqı, həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini də vurğulayır və öz dəstəyini gücləndirməyə hazır olduğunu bildirir.

Onu da qeyd edək ki, Avropa İttifaqı ölkəmizlə iqtisadi əlaqələri genişləndirməklə yanaşı, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, itkin düşmüş şəxslərin tapılması, o cümlədən bərpa və quruculuq işlərində ölkəmizə daha yaxından dəstək olmağı planlaşdırır. Son Brüssel görüşləri də təsdiq etdi ki, problemli məsələlərin həllinə kifayət qədər önəmli dəstək ola biləcək qurum məhz Avropa İttifaqıdır. Bu nüfuzlu beynəlxalq təşkilatın rəsmi mövqeyi regionda daha qısa zamanda sülhün formalaşdırılmasına xidmət edir. Başlıca şərt odur ki, Avropa İttifaqı məsələlərə obyektiv yanaşsın və beynəlxalq hüquqa əsaslansın. Digər tərəfdən, həm Azərbaycan, həm də Ermənistan mübahisə doğura biləcək məsələlərin həllində Avropaya etimad göstərirlər. Bu da sülhün əldə edilməsi imkanlarını genişləndirməklə yanaşı, prosesin daha intensivləşməsinə xidmət edir. Azərbaycan hər zaman Avropa ilə əməkdaşlığın güclənməsinə önəm verir. Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi əlaqələrin dərinləşməsi, köhnə qitənin enerji təhlükəsizliyinin formalaşmasında ölkəmizin rolunun və əhəmiyyətinin daha da artması, Aİ Şurasının Prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasındakı intensiv dialoq, təmaslar və qurumun bölgədə dayanıqlı stabilliyin əldə edilməsində rolunun artması da bundan xəbər verir. Avropa İttifaqının Prezidenti növbəti üçtərəfli görüşün əhəmiyyətini belə ifadə edib: "Müzakirə səmimi və məhsuldar oldu, biz bütün məsələləri nəzərdən keçirdik".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 24 may.- S.5.